

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 44 (23.686)

5 mart 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Martın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda videoformatda çıxış edib.

Zirvə toplantısında Pakistanın Baş naziri İmran Xan, Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğan, İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Hadi Suleymanpur, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani Azərbaycanın Qələbəsi münasibətilə təbriklərini çatdırıblar.

Dövlətimizin başçısı çıxışında Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərinə böyük əhəmiyyət verdiyini, 2020-ci ildə öz torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına hərbi-siyasi yollarla son qoyduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək və Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni bağlantı dəhlizi regionda nəqliyyat sektorunda yeni imkanlar yaradacaq. Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini Zəngəzur dəhlizindən faydalanmağa dəvət edib.

Çıxışlardan sonra İqtisadi Əməkdaşlıq Təşkilatının Araşdırma Mərkəzinin Nizamnaməsi imzalanıb.

## Naxçıvanda daha bir Dövlət proqramının icrası uğurla başa çatıb

***Məşğulluq hər bir cəmiyyətin firavanlığı və əhalinin yaşayış səviyyəsinin əsas göstəricisi kimi qəbul edilir. İnsan amilinə qayğını dövlət siyasətinin bütün istiqamətlərində əsas götürən ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi və həyat səviyyəsinin yüksəldilməsi başlıca və əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib.***

Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi muxtar respublikada da həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir. Əmək ehtiyatlarından daha səmərəli istifadə edərək əhalinin məşğulluğunun təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılan "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən tədbirlərin sistemli və daimi olmasını təmin edib. Proqramda işaxtaran vətəndaşların məşğulluğu və sosial müdafiəsinin gücləndirilməsi əsas məhiyyət kimi qarşıya qoyulub və bu istiqamətdə konkret tədbirlər görülüb.

Proqramın icrası çərçivəsində əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə muxtar respublikada əmək bazarının tələbləri nəzərə alınmaqla əmək yarmarkaları təşkil edilib. Məşğulluq xidməti orqanları tərəfindən diyarımızda fəaliyyət göstərən müəssisə və təşkilatlardan boş iş yerləri haqqında məlumatlar toplanılıb, həmin yerlər əmək yarmarkalarında işaxtaranlara təqdim olunub. Vətəndaşların məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə yeni istehsal və xidmət müəssisələri yaradılmasına diqqət artırılıb, mövcud müəssisələrin fəaliyyəti genişləndirilib. Xüsusilə bu tədbirlər çərçivəsində özəl sektorun inkişafına geniş meydan verilib. Çünki hər bir iş yeri bir ailənin yaşaması deməkdir.

Bir sözlə, Dövlət proqramının icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin güclənməsinə geniş imkanlar açıb. Proqramın icrası nəzərdə tutulan illər ərzində həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 12479 yeni iş yeri açılıb, əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılıb, 14699 işaxtaran müəssisələrdə mövcud olan vakansiyalar üzrə işlə təmin edilib, 1284 nəfər ictimai işlərə göndərilib, əmək bazarının tələbinə uyğun olaraq işaxtaranlar üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilmiş peşə kurslarını 1797, cəzaçəkmə müəssisəsində təşkil edilmiş kursları 133, Təhsil Nazirliyinə tabe olan peşə təhsili müəssisələrində təşkil edilmiş kursları isə 14672 nəfər olmaqla, ümumilikdə, muxtar respublika üzrə peşə kurslarını 16602 nəfər bitirib.

Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu da diqqətdə saxlanılıb, 76 nəfər kvota yerlərinə, sağlamlıq imkanları məhdud 446 nəfər münasib işlərə göndərilib, sağlamlıq imkanları məhdud şəxslərdən 132 nəfər peşə təhsilinə cəlb edilib, müvafiq peşə təhsilinə malik sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunmasına köməklik göstərilməsi məqsədilə 446 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işə göndərilib.

Muxtar respublikada reallaşdırılan məşğulluq strategiyasında aztəminatlı ailələrin sosial problemlərinin həlli, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması da əsas məsələlərdən



biri kimi diqqətdə saxlanılıb. Bu məqsədlə 2006-cı ildən ötən dövr ərzində aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımı ödənişi həyata keçirilib. Muxtar respublikada yaradılan yeni iş yerləri hesabına aztəminatlı ailələrdə əməkqabiliyyətli ailə üzvlərinin fəal əməyə və özünüməşğulluq proqramına cəlb olunması ehtiyac meyarının davamlı artmasına baxmayaraq, sosial yardım alan əhalinin sayının ilbəil azalmasına səbəb olub.

Bu mənada, özünüməşğulluq layihəsinin tətbiqinin də əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Özünüməşğulluq proqramına əsasən əmək bazarında iş qabiliyyəti olan, lakin özünə iş tapmaqda çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Həmçinin özünüməşğulluq proqramı sosial ədalət prinsipinin qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Təkcə ötən ilin müvafiq göstəricilərinə diqqət yetirmək kifayətdir ki, qeyd etdiklərimiz tam mənası ilə öz təsdiqini tapsın: 2020-ci ildə bu istiqamətdə muxtar respublika üzrə, ümumilikdə, 291 ailə müəyyənləşdirilib. Həmin





ailələrdən 204 ailəyə 1 baş yanıbalalı iribuynuzlu, 47 ailəyə 10 baş yanıbalalı xırdabuynuzlu heyvan verilib. Bundan başqa, 23 ailəyə miniyerşumlayan aqreqat, 2 ailəyə döşəmə hamarlayan dəzgah, 1 ailəyə təndir çörəyi, kətə və digər unlu məmulatların hazırlanması üçün avadanlıq və ləvazimatlar, 3 ailəyə qaynaqçı avadanlıqları və ləvazimatları, 3 ailəyə 10 arı ailəsi, 2 ailəyə ev quşları və quş yemi, 3 ailəyə dərzi avadanlıqları və ləvazimatları, 1 ailəyə mebellərin təmiri və üzlənməsi üçün avadanlıq və ləvazimatlar, 1 ailəyə inkubator və quş tükü təmizləyən aparat və 1 ailəyə qənnadı məmulatlarının hazırlanması üçün avadanlıq və ləvazimatlar verilib. Bu rəqəmlər bir il öncəki göstəricidən 151 nəfər çox olub.

Dövlət proqramının icrası mərhələli şəkildə aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımından asılılığını aradan qaldırıb və beləliklə, kiçik biznes, yəni fərdi ailə təsərrüfatları formalaşıb. Məsələn, 2020-ci ildə özünüməşğulluq proqramı çərçivəsində müqavilə əsasında istifadəyə verilən aktivlər müddəti bitdiyi üçün 15 ailənin mülkiyyətinə keçirilib. Onu da qeyd etmək lazımdır ki, proqrama cəlb olunan vətəndaşlara verilən aktivlərdə və təsərrüfatlarda daimi olaraq artım müşahidə edilir. Bu da onların sosial rifah halının yaxşılaşdırılmasına, məşğulluqlarının təmin olunmasına və şəxsi sahibkarlıqlarını inkişaf etdirmələrinə köməklik göstərir. Bir sözlə, Dövlət proqramının icrası nəticəsində son illər özünüməşğulluq sahələri genişlənib, yeni ailə təsərrüfatları formalaşıb. Öz imkanlarını genişləndirən ailə təsərrüfatları isə müəyyən zaman keçdikdən sonra kiçik və ya orta sahibkarlıq subyektlərinə çevrilir. Bununla da həm Naxçıvan brendi altında məhsul istehsalında çeşid və məhsul bolluğu yaranır, həm də əhalinin həyat səviyyəsi yüksəlir, işsizlik problemi aradan qalxır. Bir sözlə, insan amilinə göstərilən bu qayğılar Naxçıvanda sosial-iqtisadi inkişafın artan tempini təmin edir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq hərbi xidmətdən tərxis edilmiş şəxslərin də məşğulluqlarının təmin olunması diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə ordudan tərxis olunan gənclərlə mütəmadi görüşlər keçirilib, onlar vakant iş yerləri ilə tanış edilib, maraqlarına uyğun müvafiq peşə və ixtisaslara yiyələnmək üçün peşə hazırlığı kurslarına cəlb olunublar.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada bütün sahələrdə mütəxəssis kimi formalaşan qadınlarımız, həmçinin bu gün sahibkar kimi də öz sözlərini deyirlər. Son statistik məlumatlara görə, muxtar respublikada 7390 qadın sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Sahibkarlıq fəaliyyəti ilə yanaşı, ailə təsərrüfatları kimi dövlət qeydiyyatına alınan 1040 təsərrüfatdan 79-u qadınlar tərəfindən idarə olunur. Muxtar respublikada qadın sahibkarlığının inkişafı ilə əlaqədar həyata keçirilən genişmiqyaslı tədbirlərin davamı kimi ötən il "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi icra olunub. Naxçıvan Muxtar Respublikasının bütün rayon və şəhərlərində icra olunan layihədə biznes qurmaq istəyən xanımlara maliyyə və metodik dəstək göstərilib. Qrant layihənin sonunda 102 qadına 69250 manat məbləğində sərmayə kapitalı verilib. Bunun da 53600 manatı, yəni 77,4 faizi onlara ailə təsərrüfatını genişləndirmək və ya yenidən qurmaq üçün, 15650 manatı, yəni 22,6 faizi isə toxuculuq, dərzilik, bərbərlik və digər sənətkarlıq sahələri ilə məşğul olmaları və ya inkişaf etdirmələri üçün verilib.

Naxçıvanda sağlamlıq imkanları məhdud şəxslərin də məşğulluğu diqqət mərkəzində saxlanılır. Bütün bunlar məhdud fiziki imkanlı şəxslərin cəmiyyətə daha intensiv inteqrasiyasına zəmin yaradır. Bəhs olunan proqramın icrası məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin güclənməsinə də əsaslı zəmin yaradıb. Təkcə ötən il sağlamlıq imkanları məhdud olan 55 nəfər münasib işlə təmin edilib, 67 nəfər özünüməşğulluq proqramına cəlb olunub, sosial xarakterli haqqıödənilən ictimai işlərə isə 30 nəfər göndərilib. Hər il keçirilən qadınların əl işlərindən ibarət sərgilərdə bu kateqoriyadan olan şəxslərin də iştirak etməsi məşğulluq strategiyası sahəsində əldə edilən uğurlardandır.

Son illər davam etdirilən və icrası başa çatdırılan Dövlət proqramları bazar iqtisadiyyatı münasibətlərinin təşəkkül tapması, sahibkarlığın inkişaf etdirilməsi, əlverişli işgüzar mühitin yaradılması istiqamətində atılan önəmli addımlar əmək bazarı və məşğulluq sahəsində irəliləyişlərin əldə olunmasına rəvac verib.

Vurğulamaq lazımdır ki, muxtar respublikamızda əhalinin məşğulluğunun təmin olunması ilə bağlı həyata keçirilən sosial siyasət davamlı xarakter daşıyır. Elə bunun nəticəsidir ki, bu il yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında növbəti Sərəncam imzaladı. Proqramın qəbulu növbəti illərdə də məşğulluq məsələlərinin diqqət mərkəzində olacağından və bu sahədə həyata keçiriləcək sosial tədbirlərin əhatəsinin genişlənəcəyindən xəbər verir.

Gülcamal TAHİROVA

# Hesabat seçki yığıncağı keçirilib

Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatının hesabat seçki yığıncağı keçirilib. Yığıncaqda Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, bu gün 760 min 580 nəfər ziyalı, vətənpərvər, sağlam siyasi əqidəyə malik partiya üzvünü öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının təməl prinsiplərinin formalaşması məhz Naxçıvan Muxtar Respublikasından başlanıb. YAP Naxçıvan Muxtar Respublika Təşkilatı bu yolda inamla addımlayır və partiya üzvləri müxtəlif sahələrdə fəallıq göstərərək istər respublika miqyaslı, istərsə də beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil edirlər.



Qeyd edilib ki, muxtar respublikanın ən böyük ali təhsil ocağı olan Naxçıvan Dövlət Universitetində də tələbə-gənclərin təhsili, onların intellektual inkişafı, vətənpərvərliyi, dövlətçiliyimizə sədaqət rolunda tərbiyəsi və sağlam siyasi təfəkkürdə formalaşdırılması diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatının 2 min 162 üzvü vardır. Üzvlərin 211-i professor-müəllim heyəti, 1210-u isə qızdır.

YAP Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov bildirib ki, hazırda muxtar respublikada 502 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlardan muxtar respublika üzrə ən böyüyü məhz Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatıdır. Bu ilk təşkilatı fərqləndirən əsas xüsusiyyət təşkilatın say tərkibində ziyalı təbəqə və fəal gənclərin çox olmasıdır. Partiyanın gələcəyi, onun mövqelərinin saxlanılması və daha da möhkəmləndirilməsi missiyasının uğurla davam etdirilməsi gənclərin əlindədir.

İngilis dili və metodika kafedrasının baş müəllimi Aidə Cəlilzadə, universitetin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev və YAP Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli məruzələr ətrafında çıxış ediblər.

Yığıncaqda YAP Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatının sədri Asəf Əliyev və Universitet YAP Gənclər Birliyinin sədri Elgün Tağıyevin hesabat çıxışları dinlənilib.

Sonra yığıncağın qərarı qəbul edilib. Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatının 13 nəfərdən ibarət idarə heyəti və yeni sədri seçilib.

Sonda Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatının yeni seçilən sədri Arzu Abdullayev minnətdarlıq edib, təşkilatın fəaliyyətinin genişləndirilməsində səylə çalışacağını bildirib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində seminar keçirilib.*

# Seminar olub

"Yeni dövrün çağırışları: Rəqəmsal mühasibatlıq" adlı seminara maliyyə-mühasibatlıq sahəsində çalışan 12 mühasib xanım cəlb olunub. Tədbirin keçirilməsində əsas məqsəd bütün sahələrə sürətli dəyişikliklər gətirən rəqəmsal keçidin mühasibat peşəsinə təsiri və gələcək gözləntilərlə bağlı maarifləndirmə işinin aparılmasından ibarətdir.

Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova mühasibat uçotunun inkişaf tarixi, mühasibatlıqda kompüter texnologiyasının tətbiqi mərhələləri və rəqəmsal mühasibatlıq haqqında məlumat verib. Çıxışda yüksək texnologiyaların mühasibatlığa gətirdiyi yeniliklər, bu yeniliklərdən istifadənin mühasiblərə verdiyi üstünlüklər və gələcəkdə peşəkar mühasiblərin üzərinə düşən vəzifələrə aydınlıq gətirilib. Bildirilib ki, süni intellekt, robot texnologiyaları, bulud sistemləri, blok zənciri texnologiyası, mühasibat işçilərinin yeni texnologiyaların tətbiqinə uyğunlaşmasını olduqca əhəmiyyətli edir.

Sonda sertifikatlar təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti**

*Yeni nəşrlər*

# "Naxçıvan blokadası" – yaşadığımız illərin canlı salnaməsi

***Ötən əsrin 90-cı illəri Naxçıvan Muxtar Respublikasının bütün sakinləri üçün əsl sınaq, dözüm və imtahan illəri idi. Bu sınaqdan üzüağ çıxmaq üçün yurdun hər bir vətəndaşı əsl qəhrəmanlıq göstərir, bütün çətinliklərə mərdliklə sinə gərirdi.***

Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın ötən ilin sonlarında "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap olunan ikicildlik "Naxçıvan blokadası" kitabı qədim Naxçıvanımızın blokada şəraitində yaşadığı illər haqqında qürur nəğməsidir. Biz, yaşlı insanlar Naxçıvan Muxtar Respublikasının 1990-cı ildən bu günə qədər keçdiyi çətin və əzablı, eyni zamanda qürurverici və şərəfli illərinin şahidiyik. Mətanət Məmmədova məhz yeni kitabında bu dövrü çox gözəl bir şəkildə xarakterizə edib. Müəllifin gərgin zəhmətinin, uzun axtarışlarının bəhrəsi kimi oxuculara təqdim olunan kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "2021-ci il üçün elm və mədəniyyət sahələrində Naxçıvan Muxtar Respublika mükafatlarının verilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamı ilə elm sahəsi üzrə Naxçıvan Muxtar Respublika mükafatına layiq görülmüşdür.

Kitab ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanla bağlı ən böyük arzularını həyata keçirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikaya rəhbərliyinin 25 illiyinə həsr olunub. Kitabda 1990-1995-ci illərdə Naxçıvanın yaşadığı ağrı-acılar, qədim diyarımızın çətinliklərlə üz-üzə qalması statistik göstəricilərlə, o dövrün qəzetlərində dərc olunan məqalələrlə bir daha oxucuların gözü qarşısında canlanır. Həmin illərin ictimai-siyasi xarakteristikasını özündə əks etdirən bu məqalələr ötən əsrin canlı salnaməsi kimi tarix səhnəsində yaşayır. Müəllif blokada şəraitində yaşayan qədim diyarımızın bütün çətinliklərə necə böyük bir mərdliklə sinə gərdiyini, bu yurdun insanlarının hansı bir şəraitdə yaşayıb-yaratdıqlarını "Şərq qapısı" və rayonlarımızda çıxan qəzetlərdə çap olunan yazılarda bir daha oxucuya çatdırır.

"Naxçıvan blokadası" kitabının birinci cildi müəllifin "Diplom işindən sənədli əsərə" yazısı ilə başlayır. Hələ tələbə ikən Naxçıvanın blokadası ilə bağlı diplom işi yazan müəllif, sonralar bu mövzunu daha da genişləndirərək iki cilddən ibarət çox dəyərli və sanballı bir kitab halına gətirib. 14 fəsildən ibarət olan kitabın hər bir fəsli bizi ağrı-acılarımıza, əzablı illərimizə qaytarır. Bu sənədli-publisistik topluda həm də bədiilik var. Hər bir sənəd o günləri gözümüz önündə yenidən canlandırır. Doxsanıncı illərin əvvəllərində yaşadığımız ağrı-acılar o nəslin insanlarının hər birinin həyatının bir parçasıdır. O ağrı-acıları biz hamımız bir yerdə yaşamışıq. Ömrümüzün ən gözəl illərini çörək növbələrində, soyuq otaqlarda, işığa həsrət qalan gecələrdə sabaha olan ümidimizi itirmədən yaşamışıq. Ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı, sanki bu torpağın insanlarına yeni güc, yeni qüvvət verib, onların hər birinin qəlbində yaşamaq ümidini alovlandırıb.

Kitabın rəyçisi, hamımızın çox gözəl tanıdığı AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli 1991-ci ildə Bakıdan Naxçıvana gələrkən tələbə Mətanət Məmmədova ilə yolyoldaşı olur. Mehriyə "Meğri" deyən gəncə Fəxrəddin müəllim tarixi həqiqətləri söyləyir. Naxçıvanın Azərbaycandan ayrı düşməsinin tarixi köklərini başa salır, tarixi gerçəklikləri olduğu kimi gənclərə izah edir. Bəlkə, elə sonralar müəllifin Naxçıvanın blokadasını diplom işi kimi götürməsində tarixçi alimin söylədiyi tarixi həqiqətləri unutmaması da böyük rol oynayıb.







Müəllif bağlanan yollarımızı, mühasirəyə düşən qatarlarımızı, hücuma məruz qalan qatar maşinistlərinin yaralanmasını təsvir edərkən 1990-cı ilin ümumi mənzərəsini gözümüz önündə canlandırır. Dəmir yolunun bağlanması ilə Naxçıvanın blokadası da başlayır. Müəllifin kitabda Naxçıvanla Leninqradın mühasirəsini müqayisə etməsi də maraqlıdır. Görkəmli rus yazıçısı Aleksandr Çakovskinin "Mühasirə" romanında Leninqradın mühasirəsini xatırladan müəllif yazır: "Ermənistanın sərhədlərimizə hücumu, 20 Yanvar hadisəsi, Sədərək döyüşləri faşistlərin əvvələn Rusiya sərhədlərinə hücumuna, göydən yağdırdıqları bombardmanlara nə qədər bənzəyirdi. Leninqrad ətrafında gedən döyüşlər, almanların blokada planları necə də Naxçıvanı xatırladırdı. Leninqradın üzləşdiyi qıtlıq, səfalət, aclıq, soyuqla ölüm-dirim savaşı, hər şey Naxçıvanla nə qədər oxşar epizodlar təşkil edirdi... Bəli, Naxçıvan blokadaya salınırdı. Həm də tam blokadaya... Naxçıvanlılar leninqradlılardan fərqli bir blokada yaşayırdılar. Bu fərq ondan ibarət idi ki, Leninqrada həm hava, həm su yolu – Ladoqa gölü vasitəsilə yol var idi. Naxçıvanın isə hər tərəfdən ümidi üzülmüşdü, tək yolu hava idi".

1990-cı ildə dəmir yolu bağlananda, qatarlar güllələrlə dəlmə-deşik olunanda, 17 nəfər ağır yaralanıb xəstəxanaya yerləşdiriləndə artıq maşinistlər yola çıxmaqdan qəti imtina etdilər. Həmin dövrdə mən Naxçıvan televiziyasında redaktor işləyirdim. Ordubad xəstəxanasında yaralı maşinistlərlə söhbət aparmağım hələ də yadımdadır. Mətanət xanım da həmin günləri xatırladır: 40 gündən sonra yollar açılsa da, sonralar həmişəlik bağlandı.

Kitabın müxtəlif fəsillərində çörək növbəsində çəkdiyimiz əzablar, çörək köşkü önündə yıxılıb beyninə qan sızan Həsən kişinin faciəsi həmin illərdə hər birimizin ağrısı idi. Saatlarla çörək növbəsində dayanan insanlar, evini qızdırmaq üçün ağlaya-ağlaya ərik ağacını kəsən Həsən əminin göz yaşlarını müəllif həmin dövrün ümumi ağrılarının timsalında çox gözəl şəkildə oxucuya çatdırır.

Kitabın ən gözəl fəsli ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanı blokadadan çıxarmaq üçün həyata keçirdiyi böyük işlərin təsvirinə həsr olunub. Ağır günlərdə ulu öndər Heydər Əliyevin Naxçıvanda olması, İran və Türkiyə ilə əlaqələr yaratması, körpülərin açılması, Naxçıvanın blokadadan çıxmasında bu dahi insanın fövqəlbəşər fəaliyyəti və xidmətləri çox böyük məhəbbətlə təsvir olunur. Xalq və rəhbər sevgisini müəllif çox səmimi bir şəkildə real təsvirlərlə oxucuya çatdırır. Ümummilli lider Heydər Əliyev həmin illəri sonralar belə xatırlayır: ***"Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur".***

Ulu öndər Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində işlədiyi dövrdə onunla görüşə Azərbaycanın görkəmli ziyalıları, siyasətçiləri, sadə insanları gəlirdi. O bu insanları vaxtı olmasa belə, yenə də qəbul edirdi. Ulu öndər o dövrdə soyuq otaqda, lampa işığında gecə yarısına kimi işləyirdi. Həmin illərdə görkəmli jurnalist Sirus Təbrizli ulu öndərlə görüşmək istəyir. Köməkçisi ona deyir ki, işin sonunda gəlin, yoldaş Əliyev sizi qəbul edəcək. Sirus Təbrizli saat 6-7 radələrində Ali Məclisə gedir. Köməkçi bu dəfə ona deyir ki, Sirus müəllim, siz çox tez gəlmisiniz. Heydər Əliyevin iş vaxtının sonu gecə saat 12-dən tez olmur, siz mehmanxanaya qayıdın, biz o vaxt maşın göndərərik gələrsiniz.

Həmin günləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvana etdiyi son səfərlərinin birində belə xatırlayır: ***"Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq. Bu gün elektrik enerjisi ilə bağlı bütün problemlər həll olunub. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpa olunan enerji hesabına təmin edəcək. Bu, dünya miqyasında, bəlkə də, yeganə belə bir hal olacaqdır".***

Həqiqətən də o illər olduqca çətin idi. Sədərəkdə ağır döyüşlər gedirdi. Ərzaq çatışmırdı, insanlar istilik sarıdan həddindən artıq əziyyət çəkirdi. Mətanət xanım kitabda Sədərək döyüşlərindən bəhs edərkən şair Vaqif Məmmədov haqqında da çox səmimi danışır. Bir ziyalı, bir şair kimi Vaqif Məmmədovun əsərlərinə, şeirlərinə müraciət edərək onun kitablarından, xüsusən də "Sədərək gündəliyi"ndən bacarıqla, məhəbbətlə söhbət açır. Vaqif Məmmədov bir tarixçi-alim kimi, bir şair kimi ermənilərin Sədərəyə etdiyi 14 qanlı hücumun tarixlərini dəqiq göstərməklə tarixçi missiyasını da çox gözəl yerinə yetirib. Məhz Mətanət xanım da Sədərək hadisələrindən söhbət açarkən bu sənədli əsərlərə müraciət edərək öz əsərini tarixi faktlarla da zənginləşdirir.

Kitabın ikinci cildi 12 fəsildən ibarətdir. Kitab ümummilli lider Heydər Əliyevin gözəl bir arzusu ilə başlayır: ***"İstəyirəm mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".***

1990-cı ildən bu günə qədər 30 illik zaman içərisində Naxçıvan Muxtar Respublikasının keçdiyi şərəfli bir yolu müəllif 1995-ci ildən başlayaraq blokadanın ağırlıqlarını aradan qaldırmağı həyata amalına çevirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük quruculuq fəaliyyəti ilə bir daha geniş şəkildə oxuculara çatdırır. 60 illik ömrünün 25 ilini Naxçıvanın inkişafına, tərəqqisinə, blokadadan çıxmasına həsr edən Ali Məclisin Sədri müəllifin dediyi kimi muxtar respublikanın bütün sakinlərinin sonsuz sevgisini xarakterindəki 25 qiymətli məziyyətlə qazanıb: ***"Sadəlik, əqidə, sədaqətlilik, dövlətçilik, mübarizlik, vətənpərvərlik, prinsipiallıq, yorulmazlıq, dözümlülük, uzaqgörənlik, cəsarətlilik, Qurucu Rəhbər, ənənəvilik, zövqlülük, təmizlik, qonaqpərvərlik, zəhmətkeşlik, qayğıkeşlik, həssaslıq, mərhəmətlilik, etibarlılıq, məğrurluq, xilaskarlıq, əbədilik, müdriklik".***

Müəllif müstəqillik illərində muxtar respublikamızda həyata keçirilən böyük quruculuq işlərini Naxçıvan şəhərinin, rayonlarımızın, kəndlərimizin simasında daha aydın şəkildə oxuculara çatdırır. Kitabda çap olunan şəkillər həm 90-cı illərdəki sosial obyektlərin, həm də həmin tikililərin bugünkü mənzərəsini bir daha gözümüz önündə canlandırır. İşığa həsrət qalan muxtar respublikamız bu gün nur dənizində üzür. Abad yollar, gözoxşayan yaşıllıqlar, şəhər yollarından seçilməyən rahat kənd yolları, yaraşıqlı məktəblər, xəstəxanalar, kənd mərkəzləri, sosial obyektlər, yüzlərlə, minlərlə tikililər gözlərimiz önündə yaradılıb. Bu isə blokada şəraitində yaşayan Naxçıvanın keçdiyi böyük və şərəfli yolun bariz nümunəsidir. Müəllif "Şərq qapısı" qəzetində, rayon qəzetlərində çap olunan materiallara müraciət etməklə "Naxçıvan blokadası" kitabının məziyyətlərini daha da artırmışdır.

Ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür".***

Bəli, Naxçıvanda torpaq, yurd, Vətən sevgisi həmişə uca tutulub. Ali Məclis Sədrinin dediyi kimi: ***"Biz sehrli çubuğa malik deyilik, biz yalnız zəhmətkeş və doğma evimiz olan Naxçıvanı sevən insanlarıq".***

Jurnalist Mətanət Məmmədova da məhz "Naxçıvan blokadası" ikicildliyi ilə yurda, Vətənə olan sevgisini dünənin və bu günün müqayisəsi ilə bir daha oxucusunun gözü qarşısında canlandırıb. Bu kitab blokada şəraitində yaşayan, inkişaf edən Naxçıvanımızın canlı salnaməsidir.

*"Naxçıvan blokadası" kitabının Naxçıvan Muxtar Respublika mükafatına layiq görülməsi münasibətilə müəllifi bir daha təbrik edir, ona daha böyük yaradıcılıq uğurları arzulayırıq.*

**Asim YADİGAR**
***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri***

5 mart Bədən Tərbiyəsi və İdman Günüdür

# Naxçıvanda bədən tərbiyəsi və idman sahəsində görülən işlər öz bəhrəsini verir



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən hər il martın 5-i ölkəmizdə "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunur.***

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsinin qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan vermişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"İdmanın inkişafı bizim dövlət siyasətimizdir və idman infrastrukturunun yaradılması prosesi davam edir. Biz gələcək illərdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik ki, hər bir rayonda idmanla məşğul olmaq üçün ən müasir şərait yaradılsın".***

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idman sahəsini də əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir.

Naxçıvan Muxtar Respublikasında da idman hər zaman diqqət mərkəzində saxlanılan və təşviq edilən bir sahə olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hazırda muxtar respublikada 2 Olimpiya İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, Şahmat Mərkəzi, Atıcılıq Mərkəzi, rayon mərkəzlərində şahmat məktəbləri, Uşaq-gənclər idman məktəbləri, stadion və süniörtüklü minifutbol meydançaları, tam orta məktəblərdə müasir idman zalları, olimpiya ağırlıqqaldırma qurğuları və 967 sadətipli idman avadanlıqları mövcuddur. 2002-ci ildə boks, güləş, karate-do, şahmat, futbol, voleybol, basketbol, atletika, 2006-cı ildə paralimpiya, 2013-cü ildə atıcılıq, hava və ekstremal idman növləri, 2018-ci ildə kikboksinq federasiyaları yaradılmış, "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun fəaliyyəti bərpa olunmuşdur.





Bu gün muxtar respublikada gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Bu gün muxtar respublikamızda, ümumilikdə, 35 min 105 nəfər yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur.

Muxtar respublikada qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülmüş, müxtəlif idman federasiyaları üzrə qızlardan ibarət klublar yaradılmış, onların idman obyektlərindən istifadəsi təmin olunmuşdur. Muxtar respublikada stolüstü tennis, üzgüçülük, həndbol, fitnes, aerobika və Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölmələrində, həmçinin idmanın müxtəlif növləri ilə məşğul olan qızların sayı ilbəil artır. Olimpiya idman komplekslərində, idman mərkəzlərində, şahmat məktəblərində, stadionlarda, minifutbol meydançalarında, ümumtəhsil məktəblərinin idman zallarında, muxtar respublikanın şəhər, rayon və qəsəbələrində fəaliyyət göstərən idman federasiyalarının klub və bölmələrində, Uşaq-gənclər idman məktəblərinin qruplarında, ümumilikdə, 25 min 952-si oğlan, 9153-ü isə qız idmançı olmaqla, müxtəlif idman növləri ilə məşğul olurlar.

Ötən il də idmançılarımızın beynəlxalq turnirlərdə və Azərbaycan birinciliklərində iştirakı təmin edilmiş, onlar beynəlxalq turnirlərdə 17, Azərbaycan birinciliklərində 20 medal olmaqla, ümumilikdə, 37 medal qazanmışlar. İdman federasiyaları ilə birgə hazırlanmış proqrama əsasən gənclərin idmana cəlbinə diqqətin artırılması üçün müxtəlif idman növləri üzrə muxtar respublika səviyyəli yarışlar təşkil edilmişdir. 2020-ci ildə 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Naxçıvan şəhərində ilk dəfə "İdman festivalı" nın keçirilməsi isə, ümumilikdə, muxtar respublikada yeniyetmə və gənclərə, bədən tərbiyəsi və idmana göstərilən qayğının təzahürü kimi yaddaşlarda qalmışdır.

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də muxtar respublikada bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr də məhz bu məqsədə xidmət edir. 2020-ci il fevralın 1-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Bədən tərbiyəsi və idman insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin edir, əhalinin əmək qabiliyyətini yüksəldir, uzunömürlülüyü artırır, zərərli vərdişlərin qarşısını almaqla gəncləri fiziki və mənəvi cəhətdən Vətənin müdafiəsinə hazırlayır. Naxçıvan Muxtar Respublikasında əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Yaradılan şərait idmanın kütləviliyinə, muxtar respublikamızda beynəlxalq və ölkə səviyyəli yarışların keçirilməsinə şərait yaradır".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2020-ci il fevralın 14-də "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Dövlət proqramı müasir dövrün reallıqları nəzərə alınmaqla uşaq və gənclərin idmana cəlbinin kütləviləşməsinə, əhalinin fiziki sağlamlığının qorunmasına yeni imkanlar yaradır. Əsas məqsəd isə əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi, həmçinin idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılmasından ibarətdir.

Müşavirədə verilən tapşırıqlara əsasən muxtar respublikada bədən tərbiyəsi və idman sahəsində investisiya mühitinin yaradılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, pullu xidmət növlərinin inkişaf etdirilməsi məqsədilə Uzunoba gölü ətrafında Təlim-məşq idman kompleksinin tikintisinə başlanılmışdır.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi qarşıya qoyulan bu tapşırıqların icrasını diqqət mərkəzində saxlamaqla, istedadlı idmançılar nəslinin yetişdirilməsi üçün bütün səylərdən istifadə edəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Dövlət Universitetində "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" adlı təlim keçirilib. "Naxçıvanbank" və "Naxçıvansığorta" Açıq Səhmdar cəmiyyətlərinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev təlimin əhəmiyyətini önə çəkib. Qeyd edilib ki, tələbələrin bu təlimlərdə iştirak etməsi onların nəzəri biliklərinin təcrübədə formalaşması üçün mühüm əhəmiyyətə malikdir. Rektor birgə əməkdaşlığın perspektivliyinə toxunub və təlimin işinə uğurlar arzulayıb.***

# Bankçılıq və sığortanın mahiyyətindən bəhs edən təlim keçirilib



"Naxçıvanbank" ASC-nin İdarə Heyətinin sədri Azər Məmmədov bildirib ki, muxtar respublikada digər sahələr kimi bank sisteminin də inkişafı diqqətdə saxlanılır. Azərbaycan Respublikasının ilk regional bankı olan "Naxçıvanbank" ASC 11 sentyabr 2008-ci il tarixdə fəaliyyətə başlayıb və muxtar respublika vətəndaşlarının, kiçik və orta sahibkarların etibarlı maliyyə dəstəkçisinə çevrilib. Vurğulanıb ki, muxtar respublika banklarında hesablaşma və kassa xidmətləri, depozitlər, əmanətlər, kredit, bankomat, POS-terminal və lizinq əməliyyatları həyata keçirilir. Bundan əlavə, banklar tərəfindən müştəri ödənişlərinin idarəetmə sistemi, sürətli pul köçürmələri, kommunal və dövlət rüsumlarının ödənişi, internet və mobil bankçılıq, SMS məlumatlandırma və xarici valyuta mübadiləsi əməliyyatları da aparılır.

Sonra "Naxçıvanbank"ın əməkdaşları Rafiq Xəlilov "Bank, bank sektorunda mövcud vəziyyət", Günay Cəfərova "Naxçıvanbank" və elektron bankçılıq" mövzularında çıxış ediblər. Çıxışlarda Azərbaycan Respublikasının yeganə regional bankı olan "Naxçıvanbank" haqqında məlumat verilib, elektron və internet bankçılıq və Ani Ödəniş Sisteminin (AÖS) üstünlükləri qeyd edilib.

"Naxçıvanbank"ın digər əməkdaşları kredit və onun mahiyyəti, kreditin növləri, kredit mütəxəssisi üçün zəruri biliklər, müştəriyönümlü xidmət və müştəri məmnuniyyətindən, ödəniş kartları, plastik kartların üstünlüklərindən, marketinq strategiyasından bəhs ediblər.

"Naxçıvansığorta" ASC-nin İdarə Heyətinin sədri vəzifəsini icra edən Tural Əkbərov və həmin cəmiyyətin əməkdaşı Leyla Hüseynli bildiriblər ki, 5 könüllü sığorta növü üzrə fəaliyyət göstərilir. Vurğulanıb ki, müştərilərə sığorta xidmətlərindən rahat və məsafəli yararlana bilmək üçün "Naxçıvanbank"a məxsus ödəmə terminallarından və SmartPay onlayn ödəniş sistemindən istifadə etməklə banka yaxınlaşmadan sığorta haqlarını ödəmə imkanı yaradılıb.

Müzakirələr şəklində davam edən tədbirin yekununda seçilən 8 fəal tələbə qiymətləndirilərək sertifikatla təltif edilib. Həmin tələbələr 15 gün ərzində "Naxçıvanbank" və "Naxçıvansığorta" şirkətində təcrübə kursu keçəcəklər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Təhsil müəssisələrinin idman klublarına yeni avadanlıqlar təqdim olunub



Muxtar respublikanın təhsil müəssisələrində yaradılan idman klublarına yeni idman avadanlıqları alınıb, onların təqdimatı keçirilib.

Tədbirdə çıxış edən Təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsil və idmanın inkişafına göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, ötən müddət ərzində ümumtəhsil məktəblərində 33 futbol, 16 minifutbol idman meydançası, 196 idman zalı və açıq idman qurğuları şagird və müəllimlərin ixtiyarına verilib.

Qeyd edilib ki, "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası məqsədilə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində 12 idman növü üzrə, ümumilikdə, 185 idman klubu yaradılıb. Ali Məclis Sədrinin tapşırığı ilə həmin idman klubları idman avadanlıqları ilə təchiz olunur.

Təhsil naziri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə göstərilən diqqət və qayğıya görə təhsil işçiləri adından minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxışında vurğulayıb ki, muxtar respublikada idman hər zaman diqqət mərkəzində saxlanılan və təşviq edilən bir sahə olub.

Vurğulanıb ki, 2020-ci ildə istifadəyə verilən müasir idman komplekslərinin sayına yenisi əlavə olunub, Uzunoba gölünün ətrafında Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Təlim-məşq kompleksi salınıb və hazırda tikintisi davam etdirilir.

Nazir muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları ilə birgə idmanın müxtəlif növlərinin inkişaf etdirilməsi və kütləviliyinin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərdən də bəhs edib.

Sonra alınmış idman avadanlıqlarına baxış olub. Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələri – Güləş idman klubu üçün 140 güləş, 40 tatami döşəyi, Stolüstü tennis idman klubu üçün 14 tennis stolu, 14 tennis toru, 15 cüt raketka və tennis şarları, Atletika idman klubu üçün 10 dəst atletika səddi, 14 dəst yadro və 26 start qəlibləri, Gimnastika idman klubu üçün 108 gimnastika döşəyi, müxtəlif ölçüdə 15 fitnes topu, 20 gimnastika ipi və 10 gimnastika lenti alınmışdır. Futbol idman klubuna 6 dəst qapı toru və 30 top, Voleybol idman klubuna 3 tor və 45 top, Basketbol idman klubuna 20 top, Karate-do idman klubuna 60 tatami döşəyi, 7 cüt idman pəncəsi, Boks idman klubuna 20 cüt boks əlcəyi və 10 pəncə, Ağır Atletika idman klubuna isə 3 dəst güc trenajoru, 4 trenajor aləti, 8 qrif, 1 velosiped, 1 xizək, 5 dəst ştanq üçün plastik çəki diski təqdim ediləcək.

Alınan idman avadanlıqları təhsil müəssisələrinin idman klublarına verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

*Əfsanəyə dönən ömürlər*

# Şəhidlik şərəfli ölümdən sonrakı həyatdır



...Saday Məmmədəliyev doğulub boya-başa çatdığı Ordubad rayonunun Darkənd yaşayış məntəqəsi sakinlərinin qəlbində özünə əbədi yer qazanıb. Təkcə onlarınmı? Xeyir. Azərbaycan xalqı bu gün onu azadlıq mücadiləmizin şəhid qəhrəmanlarından biri kimi tanıyır, minnətdarlıqla xatırlayır, ruhu qarşısında baş əyir.

Onun son mənzilə yola salınması anlarını xatırlayıram. Darkənd qəbiristanlığında muxtar respublikanın bütün rayonlarından gəlmiş insanlarla yanaşı, Sadayın döyüş yoldaşları da vardı. Onlardan birinin Sadayın məzarı önündə dedikləri hər birimizdə qürur doğurdu:

– Şəhidlər ölməz, Vətən bölünməz. Saday da bu həqiqəti sübut etdi. Sübut etdi ki, Azərbaycan belə igidlər yurdudur. Onların torpağına əl uzadanları məğlub edən igidlər. Bu gün hər birimiz Saday və Saday kimi qəhrəman şəhidlərimizlə fəxr edirik.

...Mən orta məktəbdə müəllim işləyərkən hələ azyaşlı idi. Məktəbdə təsərrüfat müdiri işləyən Fatma nənəsi əlindən tutub hərdənbir məktəbə gətirərdi. Bir gün soruşdum:

– Böyüyəndə kim olacaqsan?

Sualıma əli ilə məktəbin formada olan hərbi rəhbərini göstərdi və dedi:

– Əsgər olacağam.

...O illərdən nə qədər ötüb. Saday böyüdü, orta məktəbi bitirdi, hərbi xidmətini uğurla başa vurdu. Ancaq hərbiyə marağı yenidən onu həmin formanı geyməyə sövq edirdi...

Nənəsi Fatma xalanın söhbəti:

– Dedim ki, ay oğul, neyləyirsən hərbini. Axı bizim nəsildə hərbçi olmayıb. O isə inadından dönmədi. Bircə sözü ilə bu gün təskinlik tapıram:

– Nənə, ermənilər haqqında, onların bizə qarşı münasibətləri barədə nə qədər danışmısan mənə? Elə son illərdə öz gördüklərim kifayətdir. Ermənilərin işğal altında saxladıqları torpaqlarımızı kimsə almalıdır, ya yox?

Sözlərində böyük həqiqət olduğundan dinmədim. O da dediyini etdi. Bir ilə yaxın idi ki, əyninə forma geyinmişdi. Hərbiyə getməyini, bayaq da dedim, istəməsəm də, formada gördəndə elə qürurlanırdım ki... Getdi və şəhid kimi qayıtdı. Qədim torpaqlarımızın alınmasında “uf” demədən özünü ölümün pəncəsinə atdı. “Təki Vətən, sağ olsun”, – deyə şirin canından keçdi. Bu gün bütün ölkəmiz şəhidlərimizlə qürur duyur, çünki ermənilər üzərində qazandığımız tarixi Qələbəyə məhz onların qəhrəmanlığı, torpağa məhəbbəti, yurda sevgisi ilə nail olmuşuq...

...Anası Məhəbbəti başa düşmək çətin deyil – oğul itirib. Ancaq söhbətində əsil Azərbaycan qadınına məxsus qürur hissi duyuram:

– Elə təkcə muxtar respublikamıza neçə igidimiz şəhid kimi qayıdıb. Saday da onlardan biri. Bu gün bütün xalqımızı sevindirən odur ki, mənfurları bir də torpaqlarımızda görməyəcəyik.

Orta məktəbdə Sadaya Riyaziyyat fənnini tədris edən Gündüz Babayev öz sevimli şagirdini ehtiramla xatırlayır:

– Sinifdə neçə şagird varsa, bir o qədər də xarakter var. Saday tamamilə başqa xarakterə malik idi. Zahirən sakit, dinməz. Sözü düz deyən. Yoldaşcanlı. Vətənpərvər. Tənəffüslərdə dəfələrlə müşahidə etmişdim ki, sinif yoldaşları ilə birlikdə gəzişirlər. Yoldaşları deyib-gülür, nəisə mübahisə edir, o isə çox sakitdir, gözlərini bir nöqtəyə zilləyib nə haqdasa düşünür. Şəhidlik zirvəsinə ucaldığını eşidəndə fikirləşdim ki, onun qəlbindən nələr keçirmiş... Əsl qəhrəman məhz belələri olur, öz qəhrəmanlığını sözdə yox, əməldə göstərir.

Yadıma gözəl şairimiz Xanəli Kərimlinin misraları düşür:

*Bir çiçək ətri də Vətən ətridir –*
*O duyğu qəlbinə sığışsa əgər.*
*Onda görərsən ki babalar haqmış –*
*Bu torpaq uğrunda ölməyə dəyər.*

Uzun illər Aza kənd tam orta məktəbində ibtidai sinif müəllimi işləmiş, hazırda təqaüddə olan el ağsaqqalı Hüseyn Süleymanovun söhbəti bu gün hər bir gənc üçün örnəkdir:

– Torpaqlarımızın altı da, üstü də zənginliyi, təbiətimiz füsunkarlığı, tarixi abidələrimiz möhtəşəmliyi ilə həmişə yadellilərin marağını cəlb edib. Bir çox millətlər bu sərvətlərə həsəd aparıblar. Dəfələrlə bu qədim yurd yeri onların hərb meydanına çevrilib, son nəticədə, necə deyərlər, qəhrəmanlar yetişdirən bu torpaqdan suyu süzülə-süzülə geri dönüblər. Əsli-kökü olmayan ermənilər isə lap ağını çıxararaq son iki əsrdə insanlığa sığmayan vəhşiliklər törədib, xalqımıza məxsus olan sərvətlərimizi mənimsəməyə, özününküləşdirməyə çalışıblar. Zaman-zaman buna nail də ola biliblər. Zəngəzur, Dərələyəz, Qərbi Azərbaycan... Milli mətbəximiz, musiqimiz. Hansını deyim? 30 ilə yaxın bir müddətdə daha da azğınlaşmış erməni havadarlarına arxayın olaraq öz işğalçılıq, oğurluq siyasətini bir az da geniş formada həyata keçirirdi. Nə vaxtsa buna son qoyulmalı, erməni faşistləri yerində oturdulmalı idi. Məhz zaman yetişdi ki, hər bir azərbaycanlı üçün müqəddəs olan torpaqlarımız geri alındı. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, dönməzliyi, Milli Ordumuzun qəhrəmanlığı və şücaəti ilə. Dedim ki, zaman yetişdi. Cənab Prezidentin dediyi zaman: ***“Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik”.*** Tam əminəm ki, bundan sonra erməni Azərbaycana gözünün ucu ilə belə baxa bilməyəcək. Həm gücümüzü gördü, həm də, necə deyərlər, erməni qandan qorxar. O qan igid şəhidlərimizin qanıdır. Saday da həmin şəhidlərimizdən biri. Ruhu şad olsun.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş əsgər Saday Rza oğlu Məmmədəliyevin “Vətən uğrunda” medalı ilə təltif olunmasını eşidəndə müqəddəs kitabımız “Qurani-Kərim”in “Fəth zəfər” surəsinin birinci ayəsini xatırladım: *“Həqiqətən, biz sizə açıq-aşkar bir zəfər verdik!”*

Bizə bu zəfəri bəxş edən Saday və onun kimi qəhrəman oğullar, ruhunuz şad olsun!

**✍ Muxtar MƏMMƏDOV**

***Ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında idman dövlət siyasətinin əsas prioritet məsələlərindən biridir. Təsadüfi deyil ki, məhz ötən il 5 mart – Bədən Tərbiyəsi və İdman Günü muxtar diyarımızda təntənəli şəkildə keçirilmiş, ölkənin bütün idman federasiyalarının məşqçi-müəllimləri, idmançıları Naxçıvana dəvət edilmişdi. 2020-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının birgə təşkilatçılığı ilə ölkə tarixində ilk dəfə olaraq muxtar respublikamızda 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr edilmiş idman festivalı təşkil olunmuşdu. Festivalda idman federasiyalarının, Uşaq-gənclər idman məktəblərinin, Naxçıvan Dövlət Universitetinin idman klubu və idman fakültəsinin, Şərur Rayon Ağır Atletika Bölməsinin və “Xatun” Bədii Gimnastika İdman Klubunun idman nailiyyətlərini nümayiş etdirməsi Naxçıvanın bu sahədə də böyük potensiala malik olduğunu bir daha təsdiq etdi. Bu əlamətdar bayram ərəfəsində muxtar respublikamızın idman ənənələrini beynəlxalq turnirlərdə layiqincə təmsil edən bəzi idmançılarımızın fikirlərini öyrəndik.***

# İdman – sağlam gələcəyimizin, iradə və əzmkarlığın, qələbənin rəhni

Ənənə halını alan Naxçıvan Beynəlxalq Şahmat Festivalında 2013-cü ildə ən gənc şahmatçı kimi mükafata layiq görülən zəka sahibimiz ***Zahid Allahverdiyev*** qısa vaxt kəsiyində qazandığı uğurlarla bunun təsadüf olmadığını sübut etdi. 14 yaşlı şahmatçımız ardıcıl olaraq Türkiyənin Bitlis və Gürcüstanın Tbilisi şəhərlərində keçirilən beynəlxalq şahmat turnirlərində qələbə qazanaraq Naxçıvan şahmat məktəbinin hansı gücdə olduğunu göstərmiş oldu: “Beynəlxalq turnirlərdə qalib gəlmək və ya mükafat qazanmaq böyük uğurdur. Çünki dünyanın bir çox ölkəsindən olan istedadlı şahmatçılar mübarizə aparır və kimin hansı üslubda oynadığını bilmirsən. Həm də bu turnirlərdə rəqiblərimizi tanıyır, digər oyunları təhlil edirik. Təbii ki, nə qədər çox yarış olarsa, idmançı üçün də bir o qədər təcrübə artar. Şahmat Federasiyası keçirilən bütün yarışlarda iştirakımızı təmin edir, mütəmadi olaraq dərslər keçilir. Pandemiya ilə əlaqədar olaraq ilboyu federasiyanın “Evdə qal, şahmat oyna!” devizi altında keçirilən yarışlarda, yoldaşlıq görüşlərində mübarizə apardıq. Həmçinin federasiya tərəfindən hər həftə keçirilən onlayn dərslərdə bilik və bacarıqlarımızı artırdıq, beynəlxalq təcrübəyə malik məşqçi-müəllimlərin dərslərində iştirak etdik. Bundan sonra da biz şahmatçılar yaradılan şəraitdən maksimum istifadə edərək keçirilən yarışlarda qələbə qazanıb muxtar respublikanın şahmat məktəbinin adını uca tutmağa çalışacağıq. Eyni zamanda bizə göstərilən etimadı sonadək doğruldacağımıza əminliyimizi bildirmək istəyirik”.



Qeyd edək ki, Zahid Allahverdiyev 2018-ci ildə “Naxçıvan-2018” və 2019-cu ildə “Naxçıvan-2019” Beynəlxalq Şahmat festivallarında üçüncü olub. Eyni zamanda o, 2020-ci ildə Azərbaycan birinciliyində bürünc medal qazanıb.

5 ilə yaxındır, idmanın atletika növü ilə məşğul olan ***Xatun Orucova*** bu müddət ərzində bir çox uğurlara imza atıb. Belə ki, 2017-ci ildə ilk dəfə qatıldığı Azərbaycan birinciliyində gümüş medal qazanan bu xanım idmançımız, növbəti ildə analoji yarışda 4 dəfə iştirak etmək hüququ qazanıb. Məhz ölkə birinciliyində 2 dəfə fəxri kürsünün ən yüksək zirvəsinə qalxan Xatun həmin günü belə xatırlayır: “İlk dəfə mübarizə apardığım ölkə birinciliyində gümüş medal qazandıqdan sonra məşqlərimə ara vermədim. Artıq rəqiblərimi tanıyırdım. Məhz buna görə hazırlıqlarımı davam etdirdim və növbəti yarışlara ciddi hazırlaşdım. Bu da öz bəhrəsini verdi və bir il ərzində çıxış etdiyim 4 ölkə birinciliyində 2 qızıl, 2 gümüş medal əldə etdim”.



Növbəti respublika çempionatında bürünc medal qazanan 20 yaşlı idmançımız muxtar respublika səviyyəli yarışlarda da dəfələrlə qalib adını qazanıb: “Uğur qazanmağımda məşqçilərimizin rolu böyükdür. Hər zaman mənə yeniliklər barədə məlumat veriblər və məşqlər zamanı praktik olaraq bunları həyata keçirməyimdə köməklik göstəriblər. Ölkə səviyyəli yarışlarda uğur qazanmağımın digər səbəbi muxtar respublikada keçirilən yarış və turnirlərin çoxluğu oldu. Belə ki, hər zaman keçirilən yarışlarda iştirak edərək həm yarış təcrübəmi artırdım, həm də səhvlərimi görüb aradan qaldırmağa çalışdım. Bundan sonra da Naxçıvanın idman ənənələrini ölkə və beynəlxalq səviyyəli yarışlarda layiqincə təmsil edəcəyəm”.

Naxçıvan Muxtar Respublikasında idmana göstərilən diqqət və qayğının bariz nümunəsi kimi bir çox idmançımızın adı gənc istedadların “Qızıl kitabı”na salınaraq Ali Məclis Sədrinin mükafatına layiq görülüb. Bunlardan biri də Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançısı ***Vüsal Seyidov***dur. 2016-cı ildən etibarən çıxış etdiyi turnir və yarışlarda böyük nailiyyətlər qazanan idmançımız Azərbaycan milli komandasının üzvüdür. Karate üzrə XI Avropa çempionatının qalibi olan Vüsal bu müvəffəqiyyətlərinə qədər İran İslam Respublikasının Astara şəhərində keçirilən dostluq görüşündə, 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə, Beynəlxalq İdman Olimpiadasında, 26 fevral – Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş kumite, kata növləri üzrə açıq turnirdə, “Arpaçay Open” beynəlxalq turnirində, “Bakı Open-2019” beynəlxalq karate turnirində, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş karate-do üzrə “Naxçıvan Open” beynəlxalq turnirində və “Batumi Open” beynəlxalq karate turnirində (kata və kumite üzrə) də fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb: “Keçirilən Avropa çempionatında mübarizə aparmaqdan və orada qalib adını qazanmaqdan gözəl duyğunun olduğuna inanmıram. Bu, tək mənim yox, Naxçıvan idmanının qələbəsi idi. Bu onu göstərdi ki, muxtar respublikamızda idmana və idmançılara hər zaman diqqət, qayğı ilə yanaşılır. Qitə birinciliyindən öncə bir çox beynəlxalq turnirlərin iştirakçısı və qalibi olmuşam. Məhz bu turnirlərdə iştirakımın təmin edilməsi həm də mənim yarış təcrübəmin artırılmasına səbəb oldu. Məqsədim karate idman növündə ilk olaraq dünya çempionluğunu qazanmaqdır. Buna nail olmaq üçün dayanmadan məşqlərimi davam etdirirəm. Məlum səbəblərə görə hazırda məşqlərimiz individual şəkildə olur. Buna baxmayaraq, formada qalmaq və qarşıdakı yarışlara tam hazır olmaq üçün məşqçilərimiz, federasiyamız daim bizimlə maraqlanır, müəyyən tapşırıq və tövsiyələrini verirlər”.



Gənc olmasına baxmayaraq, artıq bütün ölkə ***Gülcahan Əliyeva***nın uğurlarından danışır. Hətta məşqçilərinin təbirincə desək, bütün idman ictimaiyyəti gələcək olimpiya çempionu hazırlayır. Naxçıvanın idman tarixində ilk qadın ağır atlet olan idmançımız ölkənin ən istedadlı ağır atletlərindən biri hesab edilir. İdmançımız uğurlarının səbəbini düzgün aparılan məşq prosesində görür:



“Uşaqlıqdan bu növə marağım həddsiz olub və məhz buna görə də ağır atletikanı seçmişəm. Ağır atletika idmanın elə bir növüdür ki, körpüçük üzərinə çıxarkən hər şeyi unutmalı və diqqətini bir istiqamətə yönəltməlisən. Məşqçilərimiz hər zaman bunu bizə tövsiyə edirlər. Artıq 4 ildir, ağır atletika ilə məşğulam, Azərbaycan çempionu və mükafatçısı olmuşam. Amma bununla kifayətlənmək fikrində deyiləm. Gələcəkdə Azərbaycanın əsas milli komandasının daimi üzvü olmaq və keçirilən dünya, Avropa çempionatlarında, olimpiya oyunlarında mükafat qazanmaq istəyirəm. Bu, məşqçilərimin də arzusudur. Çünki onlar mənə güvənir, mən də bu etimadı doğrultmaq üçün dayanmadan, yorulmadan məşq edirəm. Eyni zamanda məqsədim bizim üçün yaradılan şəraitdən maksimum istifadə edib daha böyük nailiyyətlərə sahib olmaqdır”.

***İndi tam əminliklə deyə bilərik ki, Naxçıvan idmançıları Ali Məclis Sədrinin onlara göstərdiyi diqqət və qayğıdan hər zaman bəhrələnir və buna qazandıqları uğurlarla cavab verirlər. Biz də idmançılarımıza, bu sahədə çalışan mütəxəssislərə muxtar respublika idmanının inkişafı istiqamətindəki fəaliyyətlərində uğurlar arzulayırıq.***

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonu, Qarxun kənd sakini Abdinov Təmnixa Möhsün oğlunun adına olan JN-367A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Vəzirova Xuraman Ənvər qızının adına olan Naxçıvan şəhər İstiqlal küçəsi 127-də yerləşən qeyri-yaşayış sahəsinin 104011000178-05101-083009 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Güntac Şahməmmədli**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 214**